# Üzeyir Hacıbəyli

# «Yaxşı yol»

Azərbaycan professional musiqi sənətinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyli digər janrlarda olduğu kimi mahnı janrında da ilk təməl daşlarını qoyaraq, gələcək bəstəkarlıq məktəbi üçün yeni bir cığır açmışdır. Onun mahnılarında vətənpərvərlik, əzmkarlıq, milli ruh və köklərə bağlılıq özünü açıq şəkildə biruzə verir.

Üzeyir bəy II Dünya müharibəsi illərində bəstəkar olaraq öz üzərinə düşən missiyanı layiqincə yerinə yetirir. Bir sıra marş və mahnılar yazaraq döyüşə gedən əsgərlərə yüksək ruh, əhval-ruhiyyə aşılayır. Bu mahnıları indi də dinlədikdə həmin dövrün həyəcan və sevincini hiss edirik. Əlbəttə, tarixi qələbənin qazanılmasında ön və arxa cəbhədə insanları bu zəfərə kökləyən vətənpərvər ruhlu mahnı və marşların da payı az deyildi.

Üzeyir Hacıbəyli tez-tez hərbi hissələrdə olur, əsgərlərlə, döyüşçülərlə görüşür, onların vəziyyəti ilə maraqlanırdı. Bəzən də hərbçilərlə görüşlərə görkəmli şair Səməd Vurğunla birgə gedərdilər. Müharibə dövründə bu iki böyük sənətkar müştərək yaradıcılıq sayəsində bir neçə əsər ərsəyə gətirmişdilər: "Vətən ordusu", "Döyüşçülər marşı", "Şəfqət bacısı", "Zəfər himni". Bəstəkar həmçinin Aşıq Mirzə Bayramovun sözlərinə "Ananın oğluna nəsihəti", Süleyman Rüstəmin sözlərinə "Yaxşı yol" mahnısını, "Vətən və cəbhə" kantatasını yaradır.

Sözü gedən "Yaxşı yol" mahnısı Üzeyir Hacıbəylinin görkəmli şair Süleyman Rüstəmlə birgə yaradılmış töhfəsidir. Marş ritmində yazılmış bu mahnı kişi və qadınlardan ibarət xor kollektivinin ifasında duet şəklində təqdim olunur. Axıcılıq, sadə və kiçik musiqi cümlələrindən ibarət olan, təkrarlanan motivlər, mahnının yaddaqalan musiqi ibarələri bəstəkarın dəsti-xəttini bir daha vurğulayır. Mahnının tam mətnini, not yazısını və audio yazısını sizə təqdim edirik.

http://uzeyir.musigi-dunya.az/az/yaxshi_yol.








Dörd qardaşıq, qurban olaq ana yurda dördümüz,
Vardır igid sərkərdəmiz yox ürəkdə dərdimiz,
Qoymaz tapdansın vətəni qoçağımız, mərdimiz.
Düşmənlərə vermə aman, get qardaşım, yaxşı yol!
Yurdlarını eylə viran, get qardaşım, yaxşı yol!

Qədrini bil, toxunmasın sənə bir yad gülləsi,
Sən lazımsan bu ellərə, ey vətənin haqq səsi,
Var səsinlə qəlbdən oxu qalibiyyət nəğməsi.
Düşmənlərə vermə aman, get qardaşım, yaxşı yol!
Yurdlarını eylə viran, get qardaşım, yaxşı yol!

Poladdan bir səngər kimi sinəni gər hücumda,
Düşmənləri yuvasından et dərbədər hücumda,
Azdır yenə min düşməni qırsan əgər hücümda.
Düşmənlərə vermə aman, get qardaşım, yaxşı yol!
Yurdlarını eylə viran, get qardaşım, yaxşı yol!

**Nuray ƏLİYEVA**